# “Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Azərbaycanın mülki infrastrukturuna külli miqdarda ziyan dəyib”

**Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini və obyektlərini atəşə tutması nəticəsində ölkəmizin mülki infrastrukturuna külli miqdarda ziyan dəyib.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müharibə zamanı ermənilərin Azərbaycan vətəndaşlarına vurduqları ziyanın qiymətləndirilməsi ilə bağlı noyabrın 13-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi deyib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki obyektlərinə məqsədyönlü şəkildə 30 mindən çox mərmi atılıb.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri yalnız cəbhə bölgəsindəki mülki əhalini və obyektləri deyil, cəbhə zonasından xeyli kənarda yerləşən şəhərlərimizi, o cümlədən Gəncəni, Mingəçeviri, Xızını və digər şəhərlərimizi ballistik raketlərdən atəşə tutub.

Prezidentin köməkçisi qeyd edib ki, ermənilərin bu vandal və barbar əməlləri nəticəsində 90-dan çox mülki vətəndaşımız həlak olub və 400-dən artıq vətəndaşımız yaralanıb.

Hikmət Hacıyev bildirib ki, sentyabrın 27-dən indiyədək dəymiş ziyanın qiymətləndirilməsi üçün beynəlxalq və yerli qurumlar cəlb olunacaq. Ümumi nəticə əsasında əldə ediləcək rəqəmlər




beynəlxalq ictimaiyyətə də təqdim olunacaq. Bütün bunlar qiymətləndirildikdən sonra vətəndaşlara dəymiş ziyanın aradan qaldırılması istiqamətində lazımi tədbirlər görüləcək. Bunlar Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin nümunəsidir.

❖ ❖ ❖

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Azərbaycan əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətin olub. İndi isə həmin ərazilər işğaldan azad edilib.

Hikmət Hacıyev qeyd edib ki, Prezidentin son sərəncamı isə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını əhatə edir. Dəymiş ziyanla bağlı rəqəmlər Xarici İşlər Nazirliyi tərəfindən beynəlxalq ictimaiyyətə təqdim olunacaq.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın təcavüzü nəticəsində zərər görən vətəndaşlara yeni evlər veriləcək, lazım olduğu halda onların evləri əsaslı təmir ediləcək.

Hikmət Hacıyev bildirib ki, Ermənistanın təxribatı nəticəsində 4 məscid və kilsəyə, 15 qəbiristanlığa, cəbhəboyu ərazilərdə yerləşən 50-dən çox məktəb binasına ziyan dəyib.

❖ ❖ ❖

Ermənistanın hərbi təxribatı nəticəsində 50-dən çox məktəb binasına ziyan dəyib. Onların bir qisminə əsaslı şəkildə ziyan dəyib.

Prezidentin köməkçisi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının nəzdində Uşaq Hüquqları üzrə Komissiyanın fəaliyyətində hərbi əməliyyatlar zamanı uşaqlara qarşı cinayətin törədilməsində bir neçə ən ağır hallar müəyyən edilib ki, onların içində məktəblərin, uşaq bağçalarının hədəfə alınması və bombalanması ən ağır cinayətlər hesab edilir. Aidiyyəti beynəlxalq təşkilatlar da cəlb edilməklə bu prosesin qiymətləndirilməsi həyata keçiriləcək.

Azərbaycan.- 2020.-14 noyabr.- S.4.